

# Xələflinin "Mirzəlik" missiyası

*Vüqar SSHMSSD,*
*filologiya elmləri doktoru, professor,*
*Beynəlxalq Elmlər Akademiyasının akademiki, Turanın Xalq şairi*

Əli Rza Xələfliyə mən "Mirzə" deyə müraciət edirəm. Ədəbiyyat tarximizdə Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, Mirzə İsmayıl Qasir, Mirzə Cəlil və bir çox ədib şəxsiyyətlərə xalq arasında, ədəbi camiyədə olan nüfuzlarına görə "Mirzə" deyə xitab ediblər. Əli Rza fenomenal bir insandır. Şeirləri kimi məqalələrini də bədahətən yazır. Bədii təfəkkürü o qədər zəngindir ki, beyninin məhsullarını birbaşa bilgisayara diktə edir. Əli Rza Xələfli ustaddır naşir kimi də, şair kimi də, publisist-tənqidçi kimi də.

İndiki dar macalda kitabı vərəqləyirəm. Üç maraqlı əsər sanki bir-birinin davamı olaraq yazılıb. Baxmayaraq ki, "Gəyəndən əsən yellər" poemasını müəllif son bir ayda qələmə alıb. "Gəl gedək yurda sarı" əsəri ötən il nəşr olunub. "Ağır xan və Şəkər xatun" əfsanə-poemasını müəllif on il əvvəl yazıb. Bu hər üç əsəri birləşdirən bir əsas cəhət var. Bu da müəllifin tapındığı, bütün varlığı ilə bağlı olduğu məkandır. Yəni Qarabağdır. Azərbaycanın yaralı bağrıdır. Ancaq bir az dəqiqləşdirsək, bu əsərlərdə əsas məkan Qarabağın, Zəngəzurun qovuşuğunda yerləşən Cəbrayıl, Xudafərin üstü ərazilərdir.

Əli Rza Xələfli təbiət etibarı ilə təbiətlə qovuşmuş adamdır. Bəlkə də onu ədəbiyyatımızda təbiət hadisəsi adlandıranlar elə təbiətinin təbiətlə bağlı olmağını əsas götürürlər. Onun əsərlərində məkan, məkanın təbiəti elə əhatəli, elə canlı təqdim olunur ki, biz yeri, yurdu az qala, insan obrazı kimi qavrayırıq. Zənnimcə, kitabda verilmiş hər üç əsərdə əsas yer tutan Gəyən obrazı fikirlərimizin əsaslı olduğunu təsdiq edər. Gəyənin tarixi taleyi son yüz ildəki hadisələrin fonunda, xüsusilə, 30 ilə qədər müddət ərzində davam edən Qarabağ savaşının taleyi ilə qovuşur. Açığı, ədəbiyyatımızda, lap elə coğrafiyamızda Gəyən düzü haqqında geniş və əhatəli məlumatlar demək olar ki, yoxdur. Mən bilən, Gəyən düzü ilə bağlı Süleyman Rəhimovun çox dəyərli bir povesti var. Həmin povestin özü də əfsanə motivləri əsasında yazılıb. Deməli, həqiqi tarixi-coğrafı məkan olan Gəyən həm də əfsanə obrazıdır. Bu da onu göstərir ki, bu yerlər əsrlər boyu güclərin qarşılaşması üçün məkan olub. Xüsusilə, Gəyənin Xudafərin üstə olması da onun ipək yolu üçün maraq dairəsində olmasını şərtləndirib. "Gəyəndən əsən yellər" əsərində bir "Cingilbulaq əfsanəsi" də xatırlanır. Əsərdən məlum olur ki, bu qəribə, maraqlı adı olan bulaq Gəyən düzündə, Şahvəlli kəndinin yaxınlığındadır. Mağaradan süzülən su damcıları qəribə səslər çıxarır. Elə bil ki, savaş səsi eşidirsən, qılınclar toqquşur, atlar kişnəşir. Bulaq başında qızların yağı hücumundan vahimələnən səsləri duyulur.

Əli Rza Xələfli illər uzunu öncə bir "Cingilbulaq əfsanəsi" də yazıb. Həmin əfsanəyə görə guya həmin bulaqdakı qızlar yağı əlinə keçməmək üçün tanrıya yalvarıb daşa, quşa çevrilmək istəyiblər. Tanrı da onları teştə, tabağa döndərib. Müəllif bu əfsanənin təsiri altında günün hadisələrini yandırıcı detallarla qələmə alıb. Elə həmin bulağın yaxınlığındakı obada erməni vandalları bir ailəni girov götürüb. İndi də həmin ailədən xəbər-ətər yoxdur. Harada öldürülüblər, harada dəfn ediliblər - bilinmir. Bu da əfsanənun həqiqət olan tarixi üzü.

"Gəl gedək yurda sarı" bayatı-poemasında müəllif xanəndə Şamil Əhmədlinin həyat və sənət yoluna işıq tutur. Onu da deyim ki, elə Şamilin özü də Gəyənlidir. Bu əsərdə də Gəyən baş obraz kimi keçir. Onu da deyim ki, Gəyən çölü əsərdən aldığım məlumata görə əsasən yovşanla örtülüdür. Yovşan Gəyənin əsas atributu kimi görünür. Müəllif yovşan obrazını da elə canlı təqdim edir ki, biz əsərin misraları arasında az qala yovşanın ətrini, qoxusunu da hiss edirik.

Bu əsərdə zəngin etnoqrafik elementlər var, qədim adətlər yada salınır. Əsərlərin ruhuna qəm, kədər motivləri oxucunun inamını qırmır. Ona inad, həqiqət uğrunda mübarizə əzmi bəxş edir. Maraqlı bayatılar könlümüzü oxşayır. Bizi yazıya doğru çəkir:

*Vaxtı çəksən, dəm bilər,*
*Töküləni kəm bilər,*
*Ürəyindən keçəni,*
*Dost bilər, həmdəm bilər.*

*Toy gələr, qırım keçər,*
*Sinədən şırım keçər,*
*Həyat dağdı, dərədi,*
*Ömür aşırım keçər.*

*Ömrümüz qor evidir,*
*Dünyanın tor evidir,*
*Bəlkə bir nəfəs alaq,*
*Bəxtimiz gor evidir.*

"Gəl gedək yurda sarı" poemasındakı bayatıların fikir yükü, ifadə tərzi və forma mükəmməlliyi Xələflinin bayatı yaradıcılığında onun klassik örnəklər yaratmasına şübhə yeri qoymur.

"Ağır xan və Şəkər xatun əfsanəsi" də maraqlıdır. Gəyən üstündəki savaşda həlak olan döyüşçü qızın igidliyi tərənnüm olunur. Sevgilisini göz yaşları içində Ağır xan yurda gətirib dəfn edir. Onun göz yaşlarından bulaq çağlayır.

Bu əsərlərin hər biri ruhumuzu saflaşdırır. Qəlbimizi həyata sevgi duyğuları üstündə kökləyir. Əli Rza Zal oğlunun şeirlərindən Qarabağ ətri gəlir. Cəbrayıl rayihəli bu poetik nümunələr də mükəmməldir, qəlbə yatan əsərlərdir. "Gəyən əfsanəsi" adı altında təqdim olunan poemalar da vətən ruhuna köklənmiş Əli Rzanın qəlbinin - rübabının poetik nəfəsidir və demək, mirzəlik missiyasının ifadəsidir.

Mən inanıram ki, Əli Rza Xələflinin bu kitabı da istər oxucular, istərsə də ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanacaq, layiqli vətən oğlu Mirzə Əli Rzaya sağlam can, uzun ömür, ömrünün yerdə qalan on illiklərində şöhrətin daimi sahibi olmağını arzu edirəm. Yaşa, Mirzə, var ol!